# Rəhilə Gülgün: Salahlı Bayram kişi, yaxud "camış girməyən kənd"in bu günü

**İyirimi il əvvəl tanış qadın bir hadisədən dolayı mənə olan acığını belə ifadə eləmişdi; camış girməyən kənddən çıxmısan, elə bil alçaq dağları sən yaratmısan. O vaxt bu söz məni yaman yandırmışdı. Əvvəla, günahsız yerə qəzəbə uğramışdım, sonra da doğulub böyüdüyüm və bütün ruhumla bağlı olduğum kəndim haqqında deyiləni təhqir kimi qəbul eləmişdim. Hirsim soyuyanda qadının "camış girməyən kənd" deyimində heç vaxt fərqinə varmadığım həqiqəti gördüm. Belə bir deyim də var. "Fala inanma, faldan qalma". Mən nə fala inanıram, nə də falçıya. Amma açığı bürclərə inanıram. Tərəzi bürcü altında doğulduğuma görədir, bəlkə olub keçəni tərəziyə qoymadan, süzgəcdən keçirmədən, haqqı-nahaqqı ayırd eləmədən rahat olmuram... bizm Salahlı kəndində camışın kökü çoxdan kəsilib. Xatırladığım qədərincə yetmişinci illərdən. Biz kənddə rəhmətlik Rəhim kişigildən sonra ikinci varlı adam sayılırdıq. Niyə? Çünki Rəhim kişi kolxozun sədri idi, babam ferma müdiri. Şamil babamın üç sağmal camışı, iki kəlçəsi, beş inəyi, düyəsi, danası, buzovu, nə bilim, indi sayını xatırlamadığım çoxlu qoyun-quzusu vardı. Ağlı-qaralı ala-bula quzulardan başqa heç bir heyvanı sevməzdim. Axşamlar mal-qaranı ağcaqanaddan (bizim kənddə ağcaqanada dittili deyilirdi) qorumaq üçün təzəkdən qalanan ocağın tüstüsündən, səhər yuxuma haram qatan heyvan mələşməsindən, toyuq-cücə qaqqıldaşmasından qaçmaqdan ötəri xəyallar qurduğum günlərə qayıtmaq üçün indi nələrdən keçməzdim...**

### *Kənd mənim ata evimlə başlayır*

Qonşu Gəlmə kəndi ilə bizi uzun illər üstündən enli su borusu keçən, kənd adamlarının "Şorrama" dedikləri meliorasiya kanalı ayırır. İki kəndin arasından Şirvandan Qarabağa (Zərdab-Ağcabədi şossesi) yol başlanır. Bizim eyvandan qonşu Gəlmə kəndi başlayan ilk evin eyvanındakı adamlar görünür. Rəhmətlik Mirzağa kişinin qızı, mənim sinif yoldaşım Gülgəzgilin evi. Çox zabitəli kişi idi Gülgəzin atası. Uşaqları onun qorxusundan nəfəsi də, yalan olmasın, xəlvət alardı. Bizim tərəflərdə ağ ərik ancaq onun bağındaydı. Mayın axırını, iyunun əvvəlini həsrətlə gözləyərdim. Heç nədən korluq çəkməzdik, meyvə tamarzılığımız yox idi. Rəhmətlik babamın ətraf rayonlarda çoxlu dostları vardı. Qəbələdən Umar kişi qoz-fındıq, şabalıd payımızı kəsməzdi. Qızıləhmədi alma İsmayıllıdan, nar-heyva, xurma, ağ-qırmızı gilas payımız Göyçaydan, üzüm isə Ağcabədidən, rəhmətlik Səfurə nənəmin ana qohumları tərəflərdən gələrdi. Bizim şoran torpaqlarda meyvə-tərəvəz çətin yetişirdi o vədələr. Bəlkə də adamlar tənbəl olub, bəlkə əsas diqqət heyvandarlığa yönəlibmiş, onu bilmirəm.

Gülgəzlə rəfiqə idik. Əriyə görə yox ha, həqiqətən, gizlətmirəm, arada bir az ərik məsələsi da ola bilərdi. Çünki Mirzağa kişinin həyətindəki sarılı-qırmızılı, sulu, iri əriyi gündüz günorta çağı indinin özündə çıraqla axtarsan tapmazsan. Mən uşaqlıqdan ədəbiyyat vurğunuyam. Birinci sinifdən hesab dərsilə aram olmayıb. Pul saymağı əla bilsəm də məsələ-misal mənlik deyil. Ancaq ərik yetişən vədələr riyaziyyat marağım üzə çıxardı. Gülgəz sinifdə riyaziyyatı hamıdan yaxşı bilirdi. Sonralar oxuyub riyaziyyat müəllimi oldu. Mirzağa kişinin qorxusu olmasaydı bəlkə mən də riyaziyyatı ala-babat bilərdim. Dərsdən çıxanda Gülgəzlə yolumuz bir olurdu, sözləşirdik, atası evdə olmayanda mən onlara gedirdim. Mirzağa dayının evdə olmadığını bilsəm də əlimi taxta qapıya atanda sanki ürəyim ayağımın altına düşürdü. Xoşbəxtlikdən ərik ağacının biri həyətin lap girəcəyindəydi. Qorxa-qorxa Gülgəzi bir ağız səsləyib iri gövdəli, qollu-budaqlı əriyin altında özümə yer eləyirdim. Mənim istəyimlə dərsi burda öyrənirdik. Gülgəz evə çağırmazdı, özünə görə səbəbləri vardı. Heç mən də istəmirdim. Yəqin hiss elədiniz, əslində gəlişimin əsas məqsədi riyaziyyat-filan deyildi. Ağacın kölgəliyində oturub Gülgəz gələnəcən diqqətlə ətrafı izləyər, meh əsməsi üçün Allaha yalvarardım. Çünki ağacdan ərik qoparmaq yasaqdı. Biz yerə düşəni yeyə bilərdik...

### *... Aradan uzun-uzun illər ötüb*

Gülgəz qonşu Ucar rayonunda yaşayır, o vaxtdan bəri heç görüşməmişik. Mən onun üzünü yada sala bilmədiyim kimi bəlkə o da məni xatırlamır. Eyvanlı köhnə evimiz də yerində deyil. Kiçik qardaşım sökülən evin yerində hər tərəfi aynabəndlə örtülü, yeni dəbə uyğun ikimərtəbəli ev tikdirib. Sağlıqlarına qismət. Kənd yenə bizim evlə başlayır. Gülgəzgilin evi daha görünmür. Rəhmətlik Mirzağa kişinin nəvə-nəticələrinin ətrafda tikdiyi hündür evlər gözlərimin qarşısında sədlər çəksə də uşaqlıq xatirələri elə o günlərdəki kimi təzədi, doğmadı...

**Camış girməyən tozlu yollar da təzələnib. Şorrama kanalının üstündən körpü salınıb. Kənd camaatının dediyinə görə körpünü vaxtilə kənd məktəbinin direktoru, hazırda Bakıda bizneslə məşğul olan həmyerlimiz Akif müəllim və onun bacanağı, tanınmış iş adamı Şamil müəllim saldırıb. Çox xeyirxah iş görüblər. Sağ olsunlar! Kənd camatının uzaq yolu yaxın olub indi.**

Yaxşı yadımdadı, o vaxtlar bizim kənddə məktəb olmadığından Gəlmə kənd məktəbinə gedirdik. O tayla bu tayı birləşdirən borunun üstündən keçəndə yolumuz yarıbarı azalmış olurdu. Ona görə də təhlükəli olsa belə yaxın yolla getməyə üstünlük verirdik.

### *Bir səhər*

**bərk yağış yağırdı, uşaqdıq, qorxusuz-ürküsüz macəra gəzən vaxtlarımızdı. Dəstəylə məktəbə gedirdik. Oğlanlardan biri dedi ki, yol çox sürüşkəndi, gəlin, borunun içi ilə keçək. Mən o taya nəzər saldım, xeyli yol vardı. Qızların arasında ən cəsarətlisi sayılırdım. Təklif verən sinif yoldaşımız artıq qarşı tərəfdən bizə əl eləyirdi.**

Uşaqlıqdan qaranlıq və qapalı yerdə qalmaq qorxum var. Hələ də xüsusən kənd yerlərində gecələr həyətə tək çıxmağa qorxuram. Bıcaq sümüyə dirənmişdi. Burada qürur məsələsi də vardı, borunun içiylə getməsəydim uşaqlar mənə qorxaq deyəcəkdilər. Gözlərimi yumub irəliyə doğru sürünməyə başladım. Ürəyim bulanır, qulağıma qarışıq səslər gəlir, əlimin ani hərəkətindən belə diksinirdim. Qəfildən nəsə əlimin üstünə düşdü. Bir anlıq sanki nəfəsim dayandı, var gücümlə əlimi borunun kənarına çırpdım, zəif zingilti səsi gəldi. Bəlkə qurbağa, bəlkə siçan balası idi. Mən alma qurdundan belə çəkinən adam ilan-qurbağa qorxusunu unudaraq bütün gücümlə irəliyə, uzaqdan sızan işığa doğru süründüm. Bəlkə bir, bəlkə 2 dədiqəlik, bəlkə də saniyələrlə ölçülən yolda ölüm-dirim savaşı yaşadım. Bəlkə də elə o hadisədən sonra risqin və cəsarətin nə olduğunu unutdum. Bəlkə də o hadisə mənə doğru yolda yürməyi öyrətdi...



**... Kanal üstündəki yola baxıram. Əli çantalı məktəbli uşaqlar zarafatlaşa-zarafatlaşa körpünü keçir, heç bir təhlükə olmadan suya tərəf əyilib kiçik balıqlara tamaşa edirlər...**

Kənddə həyat çox dəyişib. Salahlı 60-70 evdən ibarət kiçik kənddir. Amma mənim uşaqlığımdakı kəndlə indikinin arasında yaxşı mənada yerlə-göy qədər fərq var. Bunu suçu Bayram kişi də təsdiqləyir.

***

Bayram qardaşımın dostudur. Ortaboylu, arıq, qıvraq adamdı. Olduqca zarafatcıldı. Kənddə deyirlər ki, Bayramın xəmiri yumorla yoğrulub. Çətin həyat yaşayıb. Anası Minə arvad dünyadan vaxtsız köçəndə yeddi yaşındaymış. Özünün dediyinə görə ağır həyat şərtləri onu polad kimi bərkidib, hər işi bacarır, "cin" kimi adamdır. Dəyirmanın gözünə ölü atsalar diri çıxanlardandı Bayram.

### *Təsadüfən görüşdük*

Nəsə diləyə gəlmişdi qardaşımgilə. O, məni dərhal tanıdı, mən xatırlamadım. Doğma adam kimi salamlaşdı, hal-əhval tutdu. Ərkyana da soruşdu ki, nə əcəb yolumuzu kənddən salmışıq. Adam haqlı idi. Atamın vəfatından sonra kəndə heç yolum düşməmişdi. Nəvələr israrla Göyçaya nar festivalına getməyi istəyəndə şeytanın ayağını qırmaq qərarına gəldim. Məlum məsələdir, iş-güc, ailə-uşaq, qayğılar, dürlü-dürlü bəhanələr yaxınları uzaq eləyir.

Şam süfrəsinə yığışmalıyıq indilərdə. Validə (qardaşımın həyat yoldaşı) təndir çörəyini nazik-nazik doğrayıb isinməsi üçün sobanın üstünə düzür. Həyətdə manqal üstündə bişən hinduşqa kababının ətri buram-buram yayılır. Başqa vaxt olsa, bizim nəvələr kabab şişlərə çəkilər-çəkilməz manqalın yanını kəsdirər. İsgəndərlə Səfurənin başı toyuq-cücənin dalınca qaçmağa elə qarışıb ki, kabab nədi, ata-ana belə yada düşmür. Uşaq kəndin dadını çıxarmaqla məşğuldu.

**Qardaşım:**

**- Ə Bayram, niyə oturmursan, qardaş, evə su çıxıb?**

Bayram zarafata zarafatla cavab verir:

- Ə, insafsız-mürvətsiz, suçu olanda nolar, biz də özümüzə görə adamıq, gərək elə harda gəldi üzümüzə vurasan?

**- Kənddə suçudan hörmətli adam var? Hamının işi sənnən keçir. Bu yay da bizi su üzünə həsrət qoydun. Validə səni çoxdan axtarırdı, yaxşı əlinə düşmüsən.**

Validə (gözünün quyruğu ilə narazı-narazı ərinə sarı baxır, yəni adam sənin evində süfrənin başında oturub, heç yeridir, demək istəyir):

-Bayram qardaş, sən Allah onun dediyinə fikir vermə, zarafat eləyir. Düzdü yayda çox əziyyət çəkdik. Tək biz deyilik ha, hamı əkir-becərir, su da qıtdır, sən neyniyəsən? Qara qobu (Turyançay) da elə bil əkin-biçini gözləyir, istilər düşən kimi quruyur. Keçən il yaxşı yağıntı oldu deyə su da babat idi.

Əməlli tərəvəzimiz oldu. Payızacan yediyimizi yedik, Bakıya-qardaş-bacıya da pay-pürüş yolladıq, qışa da xeyli azuqəmiz qaldı. Bu yay nəsə bar-bəhər az oldu. Yenə də şükr Allaha, özümüzə yetdik var.

**Bayram:**

**- Vallah bacı, məndən asılı olsa, heç bir evi susuz qoymaram. Bunun otu-əncəri, arpası-buğdası, pambığı var, hansı birindən yapışasan. Kəndin dolanışığı bunlardan çıxır. Gərək aratı vaxtında, qədərində eləyəsən ki, bəhər babat olsun. Kanal kəndin o başında, sizin ev kəndin girəcəyində, ona görə sizə su növbəsi hamıdan sonra çatır.**

-Kəndin cuvarıynan dost olduq ki, sudan korluq çəkməyək, o da belə, - qardaşım dostunun kürəyinə ərkyana vurur.

**-Gəl, qardaş, gəl otur ey, bu axşam hinduşqanın nübarını eləyirik, sənin də qismətin varmış, isti-isti kababdan çək dişinə, bacım da ayda-ildə bir dəfə qapımızı açıb, bu axşam dərddən-sərdən danışmayaq.**

Kənd süfrələrinin səmimi söhbətlərindən doymaq olmur. Yemək başa çatır. Validə nənə yadigarı sarı samovarı sobanın yanına yerləşdirir, dəmkeşi boruya keçirib çayniki dəmə qoyur. Samovar közündə dəm alan çayın ləzzətini kənd adamı daha yaxşı bilir. Onlar şirin-şirin söhbətləşir, biz də ləzzətlə qulaq asırıq. Arabir mən də müdaxilə edirəm, yarızarafat, yarı ciddi soruşuram:

**-Bayram qardaş, fikir verirəm, kənd heç də pis yaşamır ha, bəs deyirlər kəndlərdə camaat acından qırılır, ət-yağ üzünə həsrət qalan, aylarnan qazanı qaynamayan ailələr var?**

Bayram kişi hirsindən qıpqırmızı pörtür, gözü hədəqəsindən çıxa-çıxa:

-Sən məni bağışla, axirət dünya bacımsan, böyüyümsən, amma deməsəm ürəyim partlayar, iraq sənnən, o sözü deyən lap özünə gülür. Kənd niyə acından qırılarmış, atama lənət yalan deyirəmsə, vallah-billah bu kənddə əlsiz-ayaqsız da yoxsulluq çəkməz.

**-Bəs nəynən, necə dolanırsız, məsələn, sən cuvarsan, az da olsa aylıq maaşın var, bəs işsizlər? Zərdab kiçik rayondu, zavodu, fabriki yox, dövlətə bağlı bir neçə idarəsi var ki, orada hamıya iş çatmaz.**

- Rayonun özü haqqında söz deyə bilmərəm, bacı, amma kənddə torpaqdan beşəlli yapışan, zəhmətdən qorxmayan hər kəsin dolanışığı da var, şəraiti də. On il əvəli soruşsaydın, hə, onda çətinliklər vardı. Birincisi kəndlərdə qaz yox idi, odun sobası yandırırdıq. Odun da ceyran belində. Dağ rayonlarından gətirib qan bahasına satırdılar. Kənddə beş-altı kişinin qış odunu almağa gücü çatırdı. Ona görə də fağır-füğaranın məhləsində ağac qalmadı. Barbəhər verən ağacları qırıb yandırdıq. Kənddə nə ərəl qaldı, nə gər. Qış qapını döyməmiş qarnımıza dərd dolurdu, əlimizdə ovcumuzda olan qəpik-quruşla külfəti dolandıraq, yoxsa odun-ocağa verək?

### *O vədələr*

**çox adam qapısına kilid vurub dolanışıq dalınca Bakıya köçdü. Mal-heyvanın kökü kəsildi, ot-əncər qurudu. Kənd elə bil anadan yetim qaldı. İndi başqadı, kimin dili varar desin ki, kənd camaatı acınnan ölür. Adamın dili quruyar. Kor-kor, gör-gör, qaz var, işıq var, yol çəkilib, çörək dalınca şəhərlərə qaçanların da çoxu geri qayıdır. 50 evlik kənd idi Salahlı, indi maşallah nə qədər təzəbinə ailələr var.**

**(ardı 11-ci səhifədə)**

# Rəhilə Gülgün: Salahlı Bayram kişi, yaxud "camış girməyən kənd"in bu günü

(əvvəli 10-cu səhifədə)

Hamısının da evi, bağı, bağçası, malqarası, məhlələrdə qazı-toyuğu sayıb qurtarmaq olmur.

Həyətdə qazlar səs-səsə verir, sanki bu bamazə kənd adamının sözünü təsdiqləyir.

Bayram pəncərədən məhləyə sarı boylanıb sözünə davam edir:

**- Niyə uzağa gedək, bacı, öz qardaşının məhləsinə bax, maşallah hinduşqa sürüynən, qazı, ördəyi, yumurtlayan toyuğu, cücəsi, beçəsi, bağ-baçada meyvə yernən birdi, uşaq da bəyənib yemir, banan axtarır. Bizim tərəflərdə qoz-fındıq, zoğal bitməzdi. Allah yol verdi, onu da bitirdik. - Qardaşıma: - Ə, Abş, (Abdulhəddi adı, kəmd camaatı onu belə çağırır) qapında neçə qoz ağacı var?**

- Nə bilim, arxa məhlədə beş-altısı, qarşıda da ikisi. Elə o qədər də fındıq ağacı olar. Zoğalımız da var, amma dağ zoğalı kimi olmur, arvad bəyənmir, deyir, quru olur. Kür qıraği kəndlərdə portaxal, naringi, limon da yetişdirirlər. Yaxşı da bar verir. Bu yaz mən də bir-iki çubuq basdırmışam, tutub, görək nə olur?



### *İki sadə kənd adamının təhkiyəsi,*

mühakimə tərzi o qədər ləzzət eləyir ki, söhbətin bitməsini heç istəmirəm.

**-Bayram qardaş, açdın sandığı, tökdün pambığı, qardaşımın malını-mülkünü qoydun ortaya, beş-on günə bu həyətdə nə qaz qalar, nə ördək. Bakıdan qohum- əqrəba tökülüşüb gələr kabab iyinə. Sənin özünün nəyin var bəs, qoyundan, davardan?**

- Gəlsinlər, bacı, Allah qonağın urzasın özünnən irəli göndərir. Şükr Allaha, hər şeyimiz var. İki sağmal inək, xeyli qoyunquzu, elə Abş qardaşımın qapısındakı qədər toyuq, hinduşqa, ördək, qaz, merimeyvəsi.

- Suçuluqdan aldığın maaş ailəni dolandırmağa yetirmi, barı?

Gülür:

**- İndiki vaxtda o pul bir həftəyə çatacatmaya.**

- Bayaqdan deyirsən ki, kənd bola-bol yaşayır, amma maaş dolanışığa yetmir. Gəlir hardandı?

Barmaqlarını bir-bir qatlayır:

**- Bəsdi deyincə pay torpağım var. Tənbəllərin də torpağını icarəyə götürmüşəm. Mövsümə uyğun hər məhsuldan əkirəm. Arpa-buğdanı özümə yetdik götürüb qalanını satıram. Yonca sahəm var, ildə neçə dəfə biçilir, presləyib vururam tayalara, bu da mal-heyvanın qışının. Pambıqda yaxşı qazanc var. 7 hektarda pambıq əkirəm, ailəmlə becərirəm. Hələ pambıq yığımı başa çatmayıb, yalan olmasın, indiyəcən 4-5 min manat gəlirimiz olub. İldə 20-30 toğlu satıram, bu da puldu, bordağa bir dana bağlayıram, ətə-yağa dolanda qəssaba verirəm, bu da puldu. Yoldaşım kənd məktəbində dərs deyir, ibtidai sinif müəllimidi, onun maaşı var. Tay nə olmalıdı, ay bacı, zəhmət çəkən adam indiki zamanda ac qalmaz. Torpaq deyir ki, hərəkət səndən bərəkət də məndən.**



Göründüyü qədər Bayram kişi taleyindən çox razıdır. Ona daha bir sual verirəm.

- Bayram qardaş, dediklərindən belə bəlli olur ki, gecə-gündüz əlləşib vuruşursan, dinclik nə olduğunu bilmirsən, bəs sən nə vaxt istirahət eləyirsən?

Gülür:

**- Allahın günü o qədər uzundu ki, hər işə vaxt çatdırıram. Oğul-uşaq, nəvələr də əl yetirir. Vaxtı düzgün böləndə hər işə yetir. Mən də camaat kimi toya, məclisə gedirəm, bax elə indi oturmuşam dostumun evində söhbət eləyirəm. Arada nərd atmağa, domino oynamağa yığışırıq.**

- Elə özündən danışırsan, qardaş, bəs ailə-uşaq? Onlarla necə vaxt keçirirsən?

**- Elə bu il neçə dəfə Qəbələyə, Çaykəndə aparmışam onları. Ailəsiz bir günüm olmasın. Evimin bərəkəti onların hesabınadı.**

- Deyəsən, Vəsilə müəllimdən çox razısan?

Gülür və zarafatyana:

**- Yükün çoxu onun boynundadı, həddim nədi razı olmayım.**

...Kəndlər dəyişir, insanların rifah halı əvvəlki onilliklərlə müqayisədə yaxşılaşır. Kəndli həyatından, güzəranından razılıq edir.

Zərdabın bütün kəndlərinə gedən yollar abadlaşdırılıb, elektrik dirəkləri yenilənib, hər kənddə yeni yarımstansiyalar tikilib. Qazlaşdırma başa çatmaq üzrədir. Amma hələ də görüləsi işlər çoxdur. Ucar-Zərdab, Zərdab-Ağcabədi yolu uzun illərdir bərbad vəziyyətdədir. Bu yollarda nəinki maşınla, heç at arabası ilə də irəliləmək imkansızdır. Deyəsən, nəhayət ki, əlaqədar təşkilatlar insafa gəlib Ucar-Zərdab-Ağcabədi istiqamətində yeni yolun çəkilişinə başlayıblar. İndiki halda bu yolu getmək müşkül işdi, amma bir neçə il sonranın rahatlığını nəzərə alsaq, sevinməyə dəyər. Amma bu işlər niyə insanların canı boğazına yığılandan sonra görülür, bu bizim biləcəyimiz iş deyil. Deyək ki, Ağcabədinin qonşu Bərdə rayonundan keçməklə Gəncə-Bakı magistralına çıxmaq şansı var. Bəs zərdablılar? Qəliz sualdır. Rayonun Bakıya və digər şəhərlərə sadəcə bir çıxışı qalır. Zərdab-Mollakənd yolu. Əgər ona yol demək olarsa. Magistrala qədər olan 30 km. yolu saatda 20 sürətlə neçə vaxta qət eləmək olar, onu riyaziyyatı bilənlər daha tez hesablayar. Nabələd sürücü bu yolda gecələr bir yana, gündüz də hər an təhlükə ilə üz-üzədir.

Daha bir məqam. İki su mənbəyinin - Kürlə, Qarasuyun əhatəsində olan rayon niyə su qıtlığı çəkir? Niyə insanların min bir əzab-əziyyətlə əkib biçdiyi məhsul susuzluqdan qəhr olur?

**Əlbəttə, insanların gün-güzəranı ilə ilgili sualları bir qədər də artırmaq olar. Bəlkə, lap elə bəlkəsiz, bu suallar sürətlə dəyişən vaxtın, daim zənginləşməyə can atan həyat tərzinin suallarıdır.Əsas olan odur ki, indi, bax bu axşamın halal süfrəsi başına toplaşan, ailələri üçün normal güzəran yaradan doğma, zəhmətsevər insanlar arasında özümü hədsiz bir yüngüllük içində hiss edirəm. Dərindən, sinədolusu nəfəs alıram. Və mənə elə gəlir ki, ciyərimin hava tutumu da genişlənib...**